“Təsdiq edirəm”
Azərbaycan Dövlət Pedaqoji
Universitetinin rektoru
professor C.M.Cəfərov
“01” noyabr 2023-cü il

# ADPU-DA PROFESSOR-MÜƏLLİM HEYƏTİNİN REYTİNQ QİYMƏTLƏNDİRİLMƏSİ HAQQINDA
# TƏLİMAT

## 1. Ümumi qaydalar

1.1. Təlimat sənədinin məqsədi reytinq qiymətləndirilmə prosesinin şəffaflığını və obyektivliyini təmin etməkdir.

1.2. ADPU-da bu işin təşkilinə və şəffaflığına məsul qurum Keyfiyyət təminatı şöbəsidir.

1.3. Bu sənədlə yalnız ADPU-nun professor-müəllim heyətinin fəaliyyəti qiymətləndirilir.

1.4. Bu təlimat reytinq qiymətləndirilməsi ilə əlaqədar sənədlərin toplanma qaydalarını və balların hesablanma metodologiyasını özündə ehtiva edir.

1.5. Reytinqə aid sənədlər Cədvəl 1-ə uyğun olaraq toplanılır.

1.6. Təqdim edilən sənədlərin professor-müəllim heyətinin fəaliyyət göstərdiyi sahə üzrə uyğunluğu əsasdır.

1.7. Professor-müəllim heyətinin reytinq qiymətləndirilməsi cari ilin 1-30 noyabr tarixləri aralığında aparılır.

1.8. Sənəd qəbulu cari ildə 30 noyabr saat 23:00-dək davam edir.

1.9. Təqdim olunan sənədlərin tarixi əvvəlki ilin 1 dekabr tarixindən cari ilin 1 dekabr tarixinə qədərki müddətə aid olmalıdır.

1.10. Təqdim olunan sənədlərdə ADPU təmsilçiliyinin olması mütləqdir.

1.11. Reytinq qiymətləndirilməsində yalnız əmək kitabçası ADPU-da olan professor-müəllim heyəti iştirak edə bilər.

1.12. Əgər müəllimin məqaləsi həm “Web of Science”, həm də “Scopus” bazasına daxil olubsa, bunlardan yalnız biri üzrə qiymətləndirmə aparılır.

1.13. Həmmüəllif olan hər bir sənədə verilən bal aşağıdakı kimi bölünür:

- Sənədin müvafiq bəndinə uyğun balı müəyyən edilir;
- Həmin balın üzərinə onun 80%-i əlavə edilir;
- Əlavə olunmuş balla birlikdə yekun bal müəlliflərin sayına bölünür;

ADPU

– Həmmüəlliflər xarici mütəxəssislər olarsa, hər bir xarici həmmüəllif üçün 20 bal əlavə olunur.

1.14. Magistr, fəlsəfə və elmlər doktorluğu dissertasiyasına rəhbərlik üçün nəzərdə tutulan bal iddiaçının təhsil müddəti ərzində hesablanır.

1.15. Monoqrafiya, dərslik və dərs vəsaitlərinin nəşri ilə bağlı zərurət yarandıqda ADPU Elmi Şurasının qərarı nəzərə alınır.

1.16. Professor-müəllim heyətinin fəaliyyətlərinin qiymətləndirilməsinə dair təlimatın hər iki ildən bir təkmilləşdirilməsi nəzərdə tutulur.

1.17. Reytinqlə bağlı əsas tarixlər:

- **1 noyabr- 30 noyabr** – sənədlərin toplanması;
- **1-6 dekabr** – sənədlərin yoxlanması;
- **6 dekabr –** professor-müəllim heyətinə yekun balların təqdim olunması;
- **6-11 dekabr** – şöbədə professor-müəllim heyətinin yekun ballarla bağlı şikayətlərinin araşdırılması;
- **11-13 dekabr –** Cədvəl 4-ün müvafiq şöbəyə təqdim olunması (imzalı);
- **13-18 dekab**r – Keyfiyyət Komissiyasının iclasının keçirilməsi;
- **18-25 dekabr** – professor-müəllim heyətinin topladığı balların emal olunması;
- **25-29 dekabr** – reytinq qiymətləndirilməsinin nəticələrinin təqdimatı.

## 2. Sənədlərin toplanması

2.1. Keyfiyyətin təminatı şöbəsinin nəzdində olan işçi qrup nümayəndələrinin (bundan sonra – İşçi Qrup) vasitəsilə kafedralardan professor-müəllim heyətinin sənədləri Cədvəl 1-ə uyğun olaraq toplanılır.

2.2. Sənədlərin toplanılması müddətində professor-müəllim heyətinin müraciətləri İşçi Qrup və ya keyfiyyet.teminati@adpu.edu.az elektron ünvanı vasitəsilə qəbul edilir.

2.3. İşçi Qrupun nümayəndələri professor-müəllim heyətinin sənədlərini qovluqlarda və "Excel" faylında təqdim etməlidirlər.

2.4.Toplanmış sənədlərin (qovluqda və "Excel" faylda) Cədvəl 1-dəki qiymətləndirmə cədvəlinin bəndlərinə uyğunluğu İşci Qrupunun müvafiq nümayəndəsi və şöbənin mütəxəssisi tərəfindən birgə yoxlanılır.

2.5. İşçi Qrupun nümayəndələri professor-müəllim heyətinin sənədlərini 1-6 dekabr aralığında yoxladıqdan sonra yekun "Excel" faylları professor-müəllim heyətinə göndərilir.

2.6. Professor-müəllim heyətinin ballarla bağlı şikayəti olduqda Keyfiyyətin təminatı şöbəsinə müraciət edə bilər.

2.7. Professor-müəllim heyətinin ballarla bağlı şikayətinə müvafiq şöbə tərəfindən yerindəcə baxılır və müəyyən qərar verilir.

2.8. Professor-müəllim heyətinin yekun balları İşçi Qrup tərəfindən Cədvəl 4-ə uyğun formada imzalı şəkildə müvafiq şöbəyə təqdim edilir.

ADPU

2.9. Əgər iddiaçı müzakirə zamanı öz fikrində qərarlıdırsa, onda ADPU-nun Keyfiyyət Komissiyasının sədrinə ərizə ilə müraciət edə bilər.

2.10. Müraciət Keyfiyyət Komisiyasının iclasında araşdırılır və bununla bağlı yekun qərar qəbul edilir.

2.11. Professor-müəllim heyətinin topladığı yekun ballar emal edilir.

2.12. Reytinq qiymətləndirilməsinin nəticələri təqdim edilir.

### 3. Balların hesablanması

3.1. Müəllimin Fərdi Reytinqi (*FR*) onun cari ildə topladığı balların cəminin (*A*) 75%-i və əvvəlki ildə topladığı balın (*B*) 25%-nin cəminə əsasən formalaşır:

$$FR = 0.75 * A + 0.25 * B$$

3.2. Kafedranın professor-müəllim heyətinin topladığı ballar əsasında kafedranın reytinqi (*KR*) formalaşır və aşağıdakı düstur ilə hesablanır:

$$KR = \frac{FR_1 + FR_2 + FR_3 + \cdots + FR_N}{N}$$

Burada *N* – kafedranın ştatında olan əməkdaşlarının sayını göstərir.

3.3. Kafedra müdirinin reytinqinə (*KmR*) öz fəaliyyəti ilə yanaşı, kafedranın reytinqi təsir edir. *KmR* aşağıdakı düstur ilə hesablanır:

$$KmR = FR + 0.1 * KR$$

3.4. Bütün kafedraların topladıqları ballar əsasında fakültənin reytinqi (*FaR*) müəyyən olunur. Fakültənin reytinqi (*FaR*) aşağıdakı düstur ilə hesablanır:

$$FaR = \frac{KR_1 + KR_2 + KR_3 + \cdots + KR_N}{N}$$

Burada *N* – fakültədə fəaliyyət göstərən kafedraların sayını göstərir.

3.5. Fakültə dekanının reytinqinə (*DR*) öz fəaliyyəti ilə yanaşı, fakültənin reytinqi də təsir edir. *DR* aşağıdakı düstur ilə hesablanır:

$$DR = FR + 0.1 * FaR$$

3.6. "Tədris keyfiyyətinə dair tələbələrin rəyi" Cədvə 3-də göstərilən "Anonim sorğu" blankı əsasında aparılır. Sorğu nümayəndələr tərəfindən tyutorlara təqdim edilir. Tyutorlar isə sorğu vərəqlərini qrupda paylayır və tələbələr sorğu vərəqlərini doldurduqdan sonra onları nümayəndələrə təhvil verirlər.

3.7. Sorğu vərəqlərində hər bir müəllimə tələbələr tərəfindən qrup (*QR*) üzrə verilən bal (*TB*) aşağıdakı kimi hesablanır:

$$QR = \frac{TB_1 + TB_2 + TB_3 + \cdots + TB_N}{N}$$

Burada *N* – qrupda tələbələrin sayını göstərir.

ADPU

3.8. Yekun olaraq müəllimin qruplar üzrə topladığı bal belə hesablanır:

$$Mtb = \frac{QR_1 + QR_2 + QR_3 + \cdots + QR_N}{N}$$

Burada *Mtb* – müəllimin tələblər tərəfindən aldığı yekun balı, *N* – müəllimin dərs dediyi qrupların sayını göstərir.

3.9. Sorğunun nəticələri yalnız qrup tələbələrinin minimum 50%-i iştirak edərsə, etibarlı sayılır.

## 4. Mükafatlandırma

4.1. Reytinq qiymətləndirilməsində mükafatlandırılan əməkdaşlar aşağıdakı kimi müəyyən edilir:

− Hər kafedradan reytinq qiymətləndirilməsində iştirak edən əməkdaşların balları azalan sıra ilə düzülür;

− Hər kafedradan reytinq qiymətləndirilməsində iştirak edən əməkdaşların sayının üst 20%-i (yuvarlaq şəkildə) seçilir;

− Seçilmiş siyahıda dekan və ya kafedra müdiri varsa 1, hər ikisi varsa 2 nəfər siyahıya əlavə olunur.

− Mükafat olaraq verilən maddi vəsait bir il ərzində hər ay müəllimlərin əməkhaqqına əlavə edilir.

4.2. Mükafatlandırma ilə əlaqədar məsələlər ADPU-nun Maliyyə Komissiyası tərəfindən tənzimlənir.

ADPU

*Cədvəl 1*

**ADPU-da professor-müəllim heyətinin illik fəaliyyətinin**
**Reytinq Qiymətləndirilməsi**

| № | Reytinqə təqdim edilən sənədlər | Ballar | Sənədlərin təqdim olunma forması |
|---|---|---|---|
| 1 | Monoqrafiya (*1 çap vərəqinə əsasən. Xarici ölkədə çap olunarsa, 1 çap vərəqi üçün 7 bal, AAK-nın tövsiyə etdiyi xarici nəşriyyatlardadırsa, 12 bal əlavə olunur.)* | 13 | Kitabın üz qabığı, titul vərəqi, mündəricatı və nəşriyyat qeydlərinin olduğu səhifənin surəti<br><br>Kitabın və ya proqramın özü (*1 nüsxə*) |
| 2 | Ali məktəb üçün dərslik (*1 çap vərəqinə əsasən. Xarici ölkədə çap olunarsa, 1 çap vərəqi üçün 10 bal əlavə olunur.*) | 11 | |
| 3 | Orta məktəb üçün dərslik (*1 çap vərəqinə əsasən. Xarici ölkədə çap olunarsa, 1 çap vərəqi üçün 10 bal əlavə olunur.*) | 10 | |
| 4 | Dərs vəsaiti (*1 çap vərəqinə əsasən. Xarici ölkədə çap olunarsa, 1 çap vərəqi üçün 10 bal əlavə olunur.*) | 9 | |
| 5 | Bədii-publisistik əsərlər (*1 çap vərəqinə əsasən. Xarici ölkədə çap olunarsa, 2 bal əlavə olunur.)* | 3 | |
| 6 | Tərcümə (*1 çap vərəqinə əsasən. Kitab kateqoriyasına aid bütün elmi nəşrlər.*) | 9 | |
| 7 | Tərtibatçı (*1 çap vərəqinə əsasən*) | 8 | |
| 8 | Proqram, metodik göstəriş, mühazirə materiallarının toplusu | 20 | |
| 9 | Xarici elmi jurnalın redaksiya heyətinin üzvü *(“Web of Science”- də 2 misli, “Scopus”- da 1 misli əlavə olunur.)* | 30 | Müəllimin redaksiya heyətinin üzvü olduğu jurnalın cari ildə nəşr olunmuş hər hansı nömrəsinin üz qabığı, redaksiya heyətinin siyahısı olduğu səhifənin, mündəricatın surəti və ya linki |
| 10 | AAK-nın tövsiyə etdiyi redaksiya heyətinin üzvü | 15 | |
| 11 | Təkrar nəşr olunan kitaba görə | 20 | Kitabın üz qabığı, titul vərəqi, mündəricatı və nəşriyyat qeydlərinin olduğu səhifənin və müvafiq şuranın qərarının surəti<br>Kitabın və ya proqramın özü (*1 nüsxə*) |
| 12 | AMEA və ya Elm və Təhsil Nazirliyinin illik hesabatına daxil edilmiş elmi iş | 25 | Müvafiq qurumun illik hesabatına daxil olunmuş elmi işin daxil olduğu səhifənin surəti, kitabın üz qabığı |
| 13 | Elm və Təhsil Nazirliyinə təqdim olunmuş mühüm elmi nəticələr | 10 | Müvafiq sənəd müvafiq quruma təqdim olunmuş mühüm nəticələrin siyahısındadırsa, həmin siyahının surəti |
| 14 | Elmlər doktorluğu müdafiə edən | 120 | AAK tərəfindən verilmiş diplomun surəti |
| 15 | Fəlsəfə doktorluğu müdafiə edən | 90 | |

ADPU

| | | | |
|---|---|---|---|
| 16 | Professor elmi adı | 80 | |
| 17 | Dosent elmi adı | 50 | |
| 18 | Elmlər doktorluğu dissertasiyasına məsləhətçi *(təhsil müddətində)* | 80 | Avtoreferat (*1 nüsxə*), üz qabığı və titul vərəqinin surəti |
| 19 | Fəlsəfə doktorluğu dissertasiyasına rəhbərlik *(təhsil müddətində)* | 60 | |
| 20 | Magistr dissertasiyasına rəhbərlik *(təhsil müddətində)* | 15 | |
| 21 | Elmlər doktorluğu dissertasiyasına opponentlik | 15 | |
| 22 | Fəlsəfə doktorluğu dissertasiyasına opponentlik | 10 | |
| 23 | Kitabın (*monoqrafiya, dərslik, dərs vəsaiti və s.*) elmi redaktorluğu *( xarici ölkədə çap olunarsa, 10 bal əlavə olunur.)* | 20 | Kitabın üz qabığının titul vərəqinin, mündəricatının və nəşriyyat qeydinin olduğu sonuncu səhifənin surəti |
| 24 | Kitaba (*monoqrafiya, dərslik, dərs vəsaiti və s.*) ön söz | 12 | |
| 25 | AAK-nın Ekspert Şurasının üzvü | 30 | Müvafiq arayış və ya əmrin surəti |
| 26 | Dissertasiya Şurasının Elmi seminarının üzvü (*sədr olduğu halda 2 bal əlavə olunur.*) | 8 | |
| 27 | Kitaba (*monoqrafiya, dərslik, dərs vəsaiti və s.*) rəy | 8 | Rəyin surəti, kitabın və ya avtoreferatın üz qabığının, titul vərəqinin, nəşriyyat qeydinin olduğu səhifənin surəti |
| 28 | Avtoreferata (fəlsəfə doktorluğu) rəy | 8 | |
| 29 | Avtoreferata (elmlər doktorluğu) rəy | 13 | |
| 30 | Magistr dissertasiyasına rəsmi (əlavə) rəy | 5 | Rəyin surəti, müəllimin həmin magistr dissertasiyasına rəsmi (*əlavə*) rəyçi kimi təyin olunması haqqında kafedranın iclas protokolundan çıxarışının surəti |
| 31 | AMEA və ona bərabər tutulan akademiyalara üzvlük | 120 | Müvafiq sənədin surəti |
| 32 | AMEA-nın müxbir üzvü | 90 | |
| 33 | Beynəlxalq elmi assosiasiyaların və elmi cəmiyyətin üzvü | 40 | |
| 34 | Dissertasiya şurasına üzvlük | 15 | |
| 35 | ADPU Elmi Şurasının, Tədris-Metodiki Şurasının, Birdəfəlik Dissertasiya Şurasının üzvü | 15 | Elmi katib tərəfindən verilən arayışın surəti |
| 36 | Beynəlxalq dövri-elmi jurnalda ("*Web of Science*") məqalə *(Q1, Q2, Q3, Q4-də olarsa, uyğun olaraq 900, 700, 500, 300 bal əlavə olunur.)* | 200 | Məqalənin nəşr olunduğu jurnalın "Web of Science", "Scopus", "РИНЦ" və ya AAK-ın bazasına aid olduğunu bu bazalara aid linklərə daxil olmaqla jurnalın adını və ya İSSN nömrəsini saytda qeyd edərək yoxlamaq olar: "Web of Science": https://mjl.clarivate.com/home |

| | | | |
|---|---|---|---|
| 37 | Beynəlxalq dövri-elmi jurnalda (“*Scopus*”) məqalə *(Q1, Q2, Q3, Q4-də olarsa, uyğun olaraq 800, 600, 400, 200 bal əlavə olunur.)* | 150 | Scopus:https://www.scopus.com/sources.uri?zone=TopNavBar&origin=searchbasic<br>“РИНЦ”: https://www.elibrary.ru/titles.asp?<br>AAK: http://www.aak.gov.az/single/334<br><br>Jurnalın və ya toplunun üz qabığının, titul vərəqinin, mündəricatının, məqalə və ya tezisin olduğu səhifələrin və əgər məqalə “WoS”, “Scopus”, “РИНЦ”, AAK-dan birinə daxildirsə, onda yuxarıda qeyd edilən saytlarda mövcud olduğu hissənin surəti |
| 38 | Beynəlxalq xülasələndirmə və indeksləmə sistemlərinə (bazalara) daxil olan dövri-elmi nəşrlərdə məqalə (“AGRIS”, “Analytical Abstracts”, “Astrophysics Data System”, “Chemical Abstracts Service”, “Compendex”, “Copernicus”, “EconLit”, “ERIH PLUS”, “GeoRef”, “INSPEC- Direct”, “Math SciNet-Mathematical Reviews”, “Philosopher’s Index”, “Pub Med”, “Pubchem”, “Springer”, “Ulakbim”, “Zentralblatt MATH”) | 90 | |
| 39 | Beynəlxalq dövri-elmi jurnalda (“РИНЦ”) məqalə | 60 | |
| 40 | Digər beynəlxalq elmi jurnallarda məqalə | 30 | |
| 41 | AAK-nın Azərbaycanda tövsiyə etdiyi elmi jurnallarda məqalə | 40 | |
| 42 | Digər yerli elmi jurnallarda məqalə | 20 | |
| 43 | Publisistik məqalə (*ADPU təmsilçiliyi olduqda*) | 20 | |
| 44 | Respublika səviyyəsində keçirilən rəsm sərgisində nümayiş etdirilən rəsm əsərinə (*İncəsənət və fiziki tərbiyə fakültəsinin müəllimləri üçün; Rəssamlar İttifaqının təşkil etdiyi sərgidirsə, 30 bal əlavə olunur.*) | 20 | Rəsm əsərinin, onun cari ildə çəkilməsinin, müsabiqədə və ya sərgidə nümayiş olunduğunu müvafiq struktur tərəfindən təsdiqlənmiş arayışının surəti. |
| 45 | Beynəlxalq səviyyədə respublikada keçirilən rəsm sərgisində nümayiş etdirilən rəsm əsərinə (*İncəsənət və fiziki tərbiyə fakültəsinin müəllimləri üçün*) | 30 | |
| 46 | Xarici ölkədə keçirilən rəsm sərgisində nümayiş etdirilən rəsm əsərinə (*İncəsənət və fiziki tərbiyə fakültəsinin müəllimləri üçün*) | 40 | |
| 47 | Xarici ölkədə beynəlxalq elmi konfransda məruzə ilə çıxış *(çıxış oflayndırsa, 15 bal əlavə olunur.)* | 35 | Konfrans jurnalının və ya toplunun üz qabığının, titul vərəqinin, mündəricatının, məqalə və ya tezisin olduğu səhifələrin surəti |
| 48 | Xarici ölkədə beynəlxalq elmi konfransda məruzənin çap edilməsi | 25 | |
| 49 | Azərbaycanda beynəlxalq elmi konfransda məruzə ilə çıxış *(çıxış oflayndırsa, 10 bal əlavə olunur.)* | 25 | |

ADPU

| | | | |
|---|---|---|---|
| 50 | Azərbaycanda beynəlxalq elmi konfransda məruzənin çap edilməsi | 15 | *Oflayn məruzələrə dair video və ya foto sənəd* |
| 51 | Azərbaycanda elmi konfransda məruzə ilə çıxış *(çıxış oflayınıdırsa, 5 bal əlavə olunur.)* | 15 | |
| 52 | Azərbaycanda elmi konfransda məruzənin çap edilməsi | 10 | |
| 53 | Xarici qrant (*qrantın rəhbəri olduqda 60 bal əlavə olunur.*) | 120 | Müvafiq sənədin surəti |
| 54 | Yerli qrant (*qrantın rəhbəri olduqda 60 bal əlavə olunur.*) | 70 | |
| 55 | Xarici patent | 80 | |
| 56 | Yerli patent | 50 | |
| 57 | Beynəlxalq idman, musiqi, rəsm müsabiqələrinə və olimpiadalara tələbə hazırlığına görə (*yer tutubsa, I yer 4 misli, II yer 3 misli, III yer 2 misli əlavə olunur.*) | 30 | Müəllimin həmin tələbəni hazırlaması ilə bağlı iclas protokolundan çıxarış və əgər tələbəsi dərəcə alıbsa, ona verilən diplomun surəti |
| 58 | Respublika idman, musiqi, rəsm müsabiqələrinə və olimpiadalara tələbə hazırlığına görə (*yer tutubsa, I yer 4 misli, II yer 3 misli, III yer 2 misli əlavə olunur*) | 20 | |
| 59 | ADPU-da idman, musiqi, rəsm müsabiqələrinə və olimpiadalara tələbə hazırlığına görə (yer tutubsa, I yer 4 misli, II yer 3 misli, III yer 2 misli əlavə olunur) | 10 | |
| 60 | Beynəlxalq konfransların təşkilində iştirak | 50 | Konfransın təşkili haqqında əmrin surəti |
| 61 | Respublika konfransların təşkilində iştirak | 40 | |
| 62 | ADPU-da konfransların təşkilində iştirak | 25 | |
| 63 | Fakültədə konfransların təşkilində iştirak | 15 | |
| 64 | Konfranslarda bölmə iclasına rəhbərlik | 10 | Konfransın proqramının surəti |
| 65 | İmtahan, apellyasiya komissiyasına, imtahan qərargahına sədrlik, işəqəbul, Keyfiyyətin Təminatı Komissiyasına və işçi qrupuna üzvlük | 10 | İmtahan və monitorinq şöbəsi tərəfindən verilən arayışın surəti<br><br>Əmrin surəti |
| 66 | İmtahan (*yekun, qəbul, minimum,* | 5 | Əmrin surəti və ya Komissiyanın sədri tərəfindən |



ADPU

| | | | |
|---|---|---|---|
| | *fakültə səviyyəli komissiyaya üzvlük*), müdafiə (*buraxılış işi, magistr işi*), apellyasiya komissiyasının, İmtahan qərargahının üzvü | | arayış |
| 67 | Respublika səviyyəli komissiyalarda iştirak (*Elm və Təhsil Nazirliyi, Nazirlər Kabineti və s.*) | 25 | Əmrin surəti və ya Komissiyanın sədri tərəfindən arayış |
| 68 | Tədris keyfiyyətinə dair tələbələrin rəyi | 100 max | Müəllimlərin tələbələr tərəfindən yekun qiymətləndirilməsinin surəti |
| 69 | Fakültə səviyyəli komissiyaya üzvlük, universitet, fakültə üzrə TEC-nin, HİK-nın sədri | 25 | Kafedra müdirinin təqdimatı və ya əmrdən çıxarışın surəti |
| 70 | İctimai fəallıq | 25 Max | Kafedra müdiri və dekanın imzası ilə təqdimatının surəti |
| 71 | Semestr imtahanında koordinator (*hər iştiraka 2 bal*) | 2 | İmtahan və monitorinq şöbəsi tərəfindən arayışın surəti |
| 72 | KİV-də ADPU-nun təbliğinə görə (*TV və radio, çıxış, nüfuzlu qəzet və saytlarda məqalə*) | 15 | Televiziyadan müvafiq videoyazı və ya radiodan səs yazısı *(diskdə)*<br>Nüfuzlu qəzetdə çapın surəti və saytda məqalə olduğu halda yazının linki |
| 73 | Ən yaxşı tələbə elmi işinə rəhbərlik (*əla qiymət almış magistr dissertasiyası, buraxış işi, TEC toplusunda nəşr olunan məqalələrə rəhbərlik*) | 10 | Tələbənin tezis və ya diploma görə təltif olunduğu diplomun surəti, əgər materiallarda çap olunubsa, onun üz qabığının, titul vərəqinin, mündəricatının və tezisin olduğu səhifələrin surəti, buraxılış işinin və ya magistr dissertasiyasının "əla" qiymət alması haqqında sənədin surəti |
| 74 | "Heydər Əliyev" ordeni | 500 | Müvafiq sənədin surəti |
| 75 | "İstiqlal" ordeni | 270 | |
| 76 | "Şöhrət" orden | 240 | |
| 77 | "III dərəcəli əmək" ordeni | 210 | |
| 78 | Əməkdar elm xadimi | 180 | |
| 79 | Əməkdar müəllim | 150 | |
| 80 | "Tərəqqi" medalı | 120 | |
| 81 | "Qabaqcıl təhsil işçisi" döş nişanı | 80 | |
| 82 | "Fəxri fərman"*(Elm və Təhsil Nazirliyi tərəfindən verilibsə, 50 bal əlavə olunur.)* | 10 | Müvafiq sənədin surəti |
| 83 | Xarici ölkədə verilən diplom, sertifikat, medal (*Beynəlxalq dil serttifatları istisna olmaqla* maksimum *3 ədəd; Təlim, müsabiqə,qurultay, forum, sərgi, yarış*) *(Təlimçidirsə, 10 bal əlavə olunur.)* | 45 | Müvafiq sənədin surəti |
| 84 | Azərbaycanda verilən xarici diplom, | 20 | |

ADPU

| | | | |
|---|---|---|---|
| | sertifikat, medal (*Maksimum 3 ədəd; Təlim, müsabiqə qurultay, forum, sərgi, yarış*) **(***Təlimçidirsə, 10 bal əlavə olunur. )* | | |
| 85 | Azərbaycanda verilən yerli diplom, sertifikat, medal (*Maksimum 3 ədəd; Təlim, müsabiqə, qurultay, forum, sərgi, yarış*) *(Təlimçidirsə, 10 bal əlavə olunur.***)** | 5 | |
| 86 | ADPU-nun rektoru tərəfindən verilən sertifikat *(limit yoxdur.)* | 50 | Müvafiq sənədin surəti |
| 87 | ADPU-nun filial direktoru tərəfindən verilən sertifikat *(limit yoxdur.)* | 25 | Müvafiq sənədin surəti |
| 88 | ADPU-nun Təlim Tədris Mərkəzinin sertifikatları *(limit yoxdur.)* | 10 | Müvafiq sənədin surəti |
| 89 | Ümumi bal | | Cari ilin balı |
| 90 | Reytinq balı (yekun) | | 3.1. bəndinə uyğun hesablanır. |

ADPU

*Cədvəl 2*

**ADPU-nun___________________ fakültəsinin _____________________kafedrasının**

**əməkdaşı_____________________________________________________________**

*Soyadı* *Ad* *Ata adı*

**Sənədlərinin**

**SİYAHISI**

| № | Reytinqə təqdim edilən sənədlər | Ballar | Müəllimin balı |
|---|---|---|---|
| 1 | Monoqrafiya (*1 çap vərəqinə əsasən. Xarici ölkədə çap olunarsa, 1 çap vərəqi üçün 7 bal, AAK-nın tövsiyə etdiyi xarici nəşriyyatlardadırsa, 12 bal əlavə olunur.)* | 13 | |
| 2 | Ali məktəb üçün dərslik (*1 çap vərəqinə əsasən. Xarici ölkədə çap olunarsa, 1 çap vərəqi üçün 10 bal əlavə olunur.*) | 11 | |
| 3 | Orta məktəb üçün dərslik (*1 çap vərəqinə əsasən. Xarici ölkədə çap olunarsa, 1 çap vərəqi üçün 10 bal əlavə olunur.*) | 10 | |
| 4 | Dərs vəsaiti (*1 çap vərəqinə əsasən. Xarici ölkədə çap olunarsa, 1 çap vərəqi üçün 10 bal əlavə olunur.*) | 9 | |
| 5 | Bədii-publisistik əsərlər (*1 çap vərəqinə əsasən. Xarici ölkədə çap olunarsa, 2 bal əlavə olunur.)* | 3 | |
| 6 | Tərcümə (*1 çap vərəqinə əsasən. Kitab kateqoriyasına aid bütün elmi nəşrlər.*) | 9 | |
| 7 | Tərtibatçı (*1 çap vərəqinə əsasən*) | 8 | |
| 8 | Proqram, metodik göstəriş, mühazirə materiallarının toplusu | 20 | |
| 9 | Xarici elmi jurnalın redaksiya heyətinin üzvü *(“Web of Science”- də 2 misli, “Scopus”- da 1 misli əlavə olunur.)* | 30 | |
| 10 | AAK-nın tövsiyə etdiyi redaksiya heyətinin üzvü | 15 | |
| 11 | Təkrar nəşr olunan kitaba görə | 20 | |
| 12 | AMEA və ya Elm və Təhsil Nazirliyinin illik hesabatına daxil edilmiş elmi iş | 25 | |
| 13 | Elm və Təhsil Nazirliyinə təqdim olunmuş mühüm elmi nəticələr | 10 | |
| 14 | Elmlər doktorluğu müdafiə edən | 120 | |
| 15 | Fəlsəfə doktorluğu müdafiə edən | 90 | |
| 16 | Professor elmi adı | 80 | |
| 17 | Dosent elmi adı | 50 | |
| 18 | Elmlər doktorluğu dissertasiyasına məsləhətçi *(təhsil müddətində)* | 80 | |
| 19 | Fəlsəfə doktorluğu dissertasiyasına rəhbərlik *(təhsil müddətində)* | 60 | |
| 20 | Magistr dissertasiyasına rəhbərlik *(təhsil müddətində)* | 15 | |
| 21 | Elmlər doktorluğu dissertasiyasına opponentlik | 15 | |
| 22 | Fəlsəfə doktorluğu dissertasiyasına opponentlik | 10 | |
| 23 | Kitabın (*monoqrafiya, dərslik, dərs vəsaiti və s.*) elmi redaktorluğu *( xarici ölkədə çap olunarsa, 10 bal əlavə olunur.)* | 20 | |

ADPU

| | | | |
|---|---|---|---|
| 24 | Kitaba (*monoqrafiya, dərslik, dərs vəsaiti və s.*) ön söz | 12 | |
| 25 | AAK-nın Ekspert Şurasının üzvü | 30 | |
| 26 | Dissertasiya Şurasının Elmi seminarının üzvü (*sədr olduğu halda 2 bal əlavə olunur.*) | 8 | |
| 27 | Kitaba (*monoqrafiya, dərslik, dərs vəsaiti və s.*) rəy | 8 | |
| 28 | Avtoreferata (fəlsəfə doktorluğu) rəy | 8 | |
| 29 | Avtoreferata (elmlər doktorluğu) rəy | 13 | |
| 30 | Magistr dissertasiyasına rəsmi (əlavə) rəy | 5 | |
| 31 | AMEA və ona bərabər tutulan akademiyalara üzvlük | 120 | |
| 32 | AMEA-nın müxbir üzvü | 90 | |
| 33 | Beynəlxalq elmi assosiasiyaların və elmi cəmiyyətin üzvü | 40 | |
| 34 | Dissertasiya şurasına üzvlük | 15 | |
| 35 | ADPU Elmi Şurasının, Tədris-Metodiki Şurasının, Birdəfəlik Dissertasiya Şurasının üzvü | 15 | |
| 36 | Beynəlxalq dövri-elmi jurnalda ("*Web of Science*") məqalə *(Q1, Q2, Q3, Q4-də olarsa, uyğun olaraq 900, 700, 500, 300 bal əlavə olunur.)* | 200 | |
| 37 | Beynəlxalq dövri-elmi jurnalda ("*Scopus"*) məqalə *(Q1, Q2, Q3, Q4-də olarsa, uyğun olaraq 800, 600, 400, 200 bal əlavə olunur.)* | 150 | |
| 38 | Beynəlxalq xülasələndirmə və indeksləmə sistemlərinə (bazalara) daxil olan dövri-elmi nəşrlərdə məqalə ("AGRIS", "Analytical Abstracts", "Astrophysics Data System", "Chemical Abstracts Service", "Compendex", "Copernicus", "EconLit", "ERIH PLUS", "GeoRef", "INSPEC- Direct", "Math SciNet-Mathematical Reviews", "Philosopher's Index", "Pub Med", "Pubchem", "Springer", "Ulakbim", "Zentralblatt MATH") | 90 | |
| 39 | Beynəlxalq dövri-elmi jurnalda ("РИНЦ") məqalə | 60 | |
| 40 | Digər beynəlxalq elmi jurnallarda məqalə | 30 | |
| 41 | AAK-nın Azərbaycanda tövsiyə etdiyi elmi jurnallarda məqalə | 40 | |
| 42 | Digər yerli elmi jurnallarda məqalə | 20 | |
| 43 | Publisistik məqalə (*ADPU təmsilçiliyi olduqda*) | 20 | |
| 44 | Respublika səviyyəsində keçirilən rəsm sərgisində nümayiş etdirilən rəsm əsərinə (*İncəsənət və fiziki tərbiyə fakültəsinin müəllimləri üçün; Rəssamlar İttifaqının təşkil etdiyi sərgidirsə, 30 bal əlavə olunur.*) | 20 | |
| 45 | Beynəlxalq səviyyədə respublikada keçirilən rəsm sərgisində nümayiş etdirilən rəsm əsərinə (*İncəsənət və fiziki tərbiyə fakültəsinin müəllimləri üçün*) | 30 | |
| 46 | Xarici ölkədə keçirilən rəsm sərgisində nümayiş etdirilən rəsm əsərinə (*İncəsənət və fiziki tərbiyə fakültəsinin müəllimləri üçün*) | 40 | |
| 47 | Xarici ölkədə beynəlxalq elmi konfransda məruzə ilə çıxış *(çıxış oflayndırsa, 15 bal əlavə olunur.)* | 35 | |
| 48 | Xarici ölkədə beynəlxalq elmi konfransda məruzənin çap edilməsi | 25 | |
| 49 | Azərbaycanda beynəlxalq elmi konfransda məruzə ilə çıxış *(çıxış oflayndırsa, 10 bal əlavə olunur.)* | 25 | |
| 50 | Azərbaycanda beynəlxalq elmi konfransda məruzənin çap edilməsi | 15 | |

ADPU

| | | | |
|---|---|---|---|
| 51 | Azərbaycanda elmi konfransda məruzə ilə çıxış *(çıxış oflayınıdırsa, 5 bal əlavə olunur.)* | 15 | |
| 52 | Azərbaycanda elmi konfransda məruzənin çap edilməsi | 10 | |
| 53 | Xarici qrant (*qrantın rəhbəri olduqda 60 bal əlavə olunur.*) | 120 | |
| 54 | Yerli qrant (*qrantın rəhbəri olduqda 60 bal əlavə olunur.*) | 70 | |
| 55 | Xarici patent | 80 | |
| 56 | Yerli patent | 50 | |
| 57 | Beynəlxalq idman, musiqi, rəsm müsabiqələrinə və olimpiadalara tələbə hazırlığına görə (*yer tutubsa, I yer 4 misli, II yer 3 misli, III yer 2 misli əlavə olunur.*) | 30 | |
| 58 | Respublika idman, musiqi, rəsm müsabiqələrinə və olimpiadalara tələbə hazırlığına görə (*yer tutubsa, I yer 4 misli, II yer 3 misli, III yer 2 misli əlavə olunur*) | 20 | |
| 59 | ADPU-da idman, musiqi, rəsm müsabiqələrinə və olimpiadalara tələbə hazırlığına görə (yer tutubsa, I yer 4 misli, II yer 3 misli, III yer 2 misli əlavə olunur) | 10 | |
| 60 | Beynəlxalq konfransların təşkilində iştirak | 50 | |
| 61 | Respublika konfransların təşkilində iştirak | 40 | |
| 62 | ADPU-da konfransların təşkilində iştirak | 25 | |
| 63 | Fakültədə konfransların təşkilində iştirak | 15 | |
| 64 | Konfranslarda bölmə iclasına rəhbərlik | 10 | |
| 65 | İmtahan, apellyasiya komissiyasına, imtahan qərargahına sədrlik, işəqəbul,<br>Keyfiyyətin Təminatı Komissiyasına və işçi qrupuna üzvlük | 10 | |
| 66 | İmtahan (*yekun, qəbul, minimum, fakültə səviyyəli komissiyaya üzvlük*), müdafiə (*buraxılış işi, magistr işi*), apellyasiya komissiyasının, İmtahan qərargahının üzvü | 5 | |
| 67 | Respublika səviyyəli komissiyalarda iştirak (*Elm və Təhsil Nazirliyi, Nazirlər Kabineti və s.*) | 25 | |
| 68 | Tədris keyfiyyətinə dair tələbələrin rəyi | 100 max | |
| 69 | Fakültə səviyyəli komissiyaya üzvlük, universitet, fakültə üzrə TEC-nin, HİK-nın sədri | 25 | |
| 70 | İctimai fəallıq | 25 Max | |
| 71 | Semestr imtahanında koordinator (*hər iştiraka 2 bal*) | 2 | |
| 72 | KİV-də ADPU-nun təbliğinə görə (*TV və radio, çıxış, nüfuzlu qəzet və saytlarda məqalə*) | 15 | |
| 73 | Ən yaxşı tələbə elmi işinə rəhbərlik (*əla qiymət almış magistr dissertasiyası, buraxılış işi, TEC toplusunda nəşr olunan məqalələrə rəhbərlik*) | 10 | |
| 74 | "Heydər Əliyev" ordeni | 500 | |

ADPU

| | | | |
|---|---|---|---|
| 75 | “İstiqlal” ordeni | 270 | |
| 76 | “Şöhrət” orden | 240 | |
| 77 | “III dərəcəli əmək” ordeni | 210 | |
| 78 | Əməkdar elm xadimi | 180 | |
| 79 | Əməkdar müəllim | 150 | |
| 80 | “Tərəqqi” medalı | 120 | |
| 81 | “Qabaqcıl təhsil işçisi” döş nişanı | 80 | |
| 82 | “Fəxri fərman”*(Elm və Təhsil Nazirliyi tərəfindən verilibsə, 50 bal əlavə olunur.)* | 10 | |
| 83 | Xarici ölkədə verilən diplom, sertifikat, medal (*Beynəlxalq dil serttifatları istisna olmaqla* m*aksimum 3 ədəd; Təlim, müsabiqə,qurultay, forum, sərgi, yarış*) *(Təlimçidirsə, 10 bal əlavə olunur.)* | 45 | |
| 84 | Azərbaycanda verilən xarici diplom, sertifikat, medal (*Maksimum 3 ədəd; Təlim, müsabiqə qurultay, forum, sərgi, yarış*) **(***Təlimçidirsə, 10 bal əlavə olunur. )* | 20 | |
| 85 | Azərbaycanda verilən yerli diplom, sertifikat, medal (*Maksimum 3 ədəd; Təlim, müsabiqə, qurultay, forum, sərgi, yarış*) *(Təlimçidirsə, 10 bal əlavə olunur.***)** | 5 | |
| 86 | ADPU-nun rektoru tərəfindən verilən sertifikat *(limit yoxdur.)* | 50 | |
| 87 | ADPU-nun filial direktoru tərəfindən verilən sertifikat *(limit yoxdur.)* | 25 | |
| 88 | ADPU-nun Təlim Tədris Mərkəzinin sertifikatları *(limit yoxdur.)* | 10 | |
| 89 | Ümumi bal | | |
| 90 | Reytinq balı (yekun) | | |

**İmza:______________________**

A D P U

*Cədvəl 3*

**TƏLƏBƏLƏRİN MÜƏLLİMDƏN MƏMNUNLUĞU HAQQINDA ANONİM SORĞU**

*Sualları cavablandırarkən layiq gördüyünüz*

*xananı **1-dən 100-dək** rəqəmlə qeyd edin. Hər bir sual üzrə maksimum 100 balla qiymətləndirilir.*

**Fakültə:__________________________İxtisas:________________________________________________________Cinsiniz:____________**

| № | *Suallar* | *Fənnin və müəllimin adı* | *Fənnin və müəllimin adı* | *Fənnin və müəllimin adı* | *Fənnin və müəllimin adı* | *Fənnin və müəllimin adı* | *Fənnin və müəllimin adı* | *Fənnin və müəllimin adı* |
|---|---|---|---|---|---|---|---|---|
| | | | | | | | | |
| 1 | Müəllimin mühazirə və seminarlarda İKT vasitələrindən istifadə etməsi | | | | | | | |
| 2 | Müəllimin dərsi səlis və aydın şəkildə izah etməsi | | | | | | | |
| 3 | Müəllimin interaktiv metodlardan istifadə etməklə hər bir tələbənin fəal iştirakına şərait yaratması | | | | | | | |
| 4 | Müəllimin tələbələrə fərdi yanaşması və dərsdənkənar köməklik göstərməsi | | | | | | | |
| 5 | Müəllimin tədris prosesində “Moodle” platformasından aktiv istifadə etməsi | | | | | | | |
| 6 | Müəllimin tələbələrə dərsdə fəal iştirakına şərait yaratması | | | | | | | |
| 7 | Müəllimin verdiyi sərbəst işlərin praktik olması | | | | | | | |
| 8 | Kollokvium və imtahanlardan müvəffəq qiymət almaqda müəllimin keçdiyi dərsin əhəmiyyətli olması | | | | | | | |
| 9 | Müəllimin qiymətləndirmə prosesində obyektivliyi | | | | | | | |
| 10 | Müəllimin digər tələbələrə tövsiyə edilməsi | | | | | | | |

**Arzu və təkliflərinizi qeyd edə bilərsiniz: ________________________________________________________________________**

ADPU

*Cədvəl 4*

**ADPU-nun_________________________ fakültəsinin __________________________________kafedrasının yekun**

**REYTİNQ QİYMƏTLƏNDİRİLMƏSİ CƏDVƏLİ**

| № | Adı | Ata adı | Elmi adı | Elmi dərəcəsi | Vəzifəsi | Cari ilin balı | Cari ilin REYTİNQİ | İmza |
|---|---|---|---|---|---|---|---|---|
| | | | | | | | | |
| | | | | | | | | |
| | | | | | | | | |
| | | | | | | | | |
| | | | | | | | | |
| | | | | | | | | |
| | | | | | | | | |
| | | | | | | | | |
| | | | | | | | | |

**Fakültə dekanının imzası:__________________________**

ADPU